**Ümumi məlumat**

“Bitki Mühafizəsi haqqında” Beynəlxalq Konvensiya (ingiliscə adı – International Plant Protection Convention – IPPC) 1951-ci ildə FAO çərçivəsində qəbul olunmuşdur. Əsas məqsədi bitkiləri və bitki məhsullarını zərərvericilərdən, xəstəliklərdən və alaq otlarından qorumaqla qlobal kənd təsərrüfatı təhlükəsizliyini təmin etməkdir. Konvensiya beynəlxalq ticarət zamanı zərərli orqanizmlərin yayılmasının qarşısını almağa yönəlib. Baş qərargahı Romada, İtaliyada (FAO-nun nəzdində) yerləşir.

Əsas vəzifələri:

- Bitki sağlamlığına dair beynəlxalq standartların (ISPMs) hazırlanması
- Üzv dövlətlər arasında məlumat mübadiləsi və erkən xəbərdarlıq sisteminin təmin edilməsi
- Karantin tədbirlərinin tənzimlənməsi
- Fitosanitar sertifikatlaşdırmanın harmonizasiyası
- Beynəlxalq ticarətdə fitosanitar maneələrin azaldılması

Azərbaycan Respublikası 14 mart 2000-ci il tarixində “Bitki Mühafizəsi haqqında” Beynəlxalq Konvensiyaya qoşulmuşdur.

AQTA IPPC üzrə ölkəmizin rəsmi əlaqələndirici qurumu (official contact point) qismində çıxış edir, beynəlxalq fitosanitar standartların hazırlanmasında iştirak edir, məlumat mübadiləsini həyata keçirir və milli fitosanitar sistemin beynəlxalq tələblərə uyğunlaşdırılmasına töhfə verir. https://www.ippc.int/en/countries/azerbaijan/